## Yeni xidmət mərkəzləri istifadəyə verilmişdir

*Aprel ayının 4-də Saatlı və Biləsuvar rayonlarında vergi ödəyicilərinə xidmət mərkəzlərinin açılışı olmuşdur*

Vergilər nazirinin müşaviri Ələkbər Məmmədovun və Vergi ödəyicilərinə xidmət idarəsinin rəisi Elçin Məmmədovun iştirak etdikləri açılış mərasimlərində qeyd olunmuşdur ki, Vergilər Nazirliyinin yaratdığı vergi ödəyicilərinə xidmət mərkəzləri vergilərin könüllü ödənilməsi sisteminin, sahibkarlığa dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafı və əlverişli biznes mühitinin formalaşdırılmasına əməli kömək məqsədi daşıyır. Bu mərkəzlər yaradılarkən ərazisində vergi orqanı olmayan şəhər və rayon mərkəzlərinə üstünlük verilir və hazırda respublikamızda müasir avadanlıqlarla və sürətli kommunikasiya sistemi ilə təchiz edilmiş 31 xidmət mərkəzi fəaliyyət göstərir. Sahibkarların maarifləndirilməsi, onlara müxtəlif növ hüquqi, informasiya, metodiki və s. köməkliyin göstərilməsini təmin edən bu xidmət mərkəzləri pulsuz fəaliyyət göstərir. Mərkəzlərdə vergi ödəyiciləri öz şəxsi hesab vərəqələrindəki məlumatlara baxa, büdcəyə olan vergi borcu, onun yaranma səbəbləri və digər məsələlər barədə zəruri məlumatlar əldə edə bilərlər.

Hər iki tədbirdə vergi sistemində tətbiq edilən yeniliklər və vergi ödəyicilərini maraqlandıran digər məsələlərlə bağlı suallar cavablandırılmışdır.